Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Layihənin istiqaməti:
"İctimai və dövlət maraqlarının müdafiəsi"

# Rəfibəylilər nəslinin layiqli davamçısı

## Akif Rəfiyevin prokurorluq, daxili işlər və ədliyyə orqanlarında fəaliyyəti öz səmərəliliyi ilə diqqət çəkir

**Atalar gözəl deyib: "Ot kökü üstə bitər". Gəncə şəhərindəki Rəfibəylilər nəsli tanınmış şəxslər yetişdirib. Vaxtilə həmin nəslin nümayəndəsi Xudadat bəy Ələkbər oğlu Rəfibəyli, ixtisasca həkim olmasına baxmayaraq, Şərqdə ilk demokratik respublika-Azərbaycan Xalq Cümhuriyyəti dövründə Gəncə quberniyasının qubernatoru vəzifəsinə təyin edilmişdir. Həmçinin X.Ə.Rəfibəyli 17 iyun 1918-ci ildə Gəncə şəhərində səhiyyə və sosial təminat naziri kimi yüksək vəzifədə - Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının üzvü olmuşdur.**

Bu nəslin davamçılarından biri də Rəfiyev Akif Bəşir oğludur. O, 23 mart 1936-cı ildə Gəncə şəhərində anadan olmuş, 1960-cı ildə ADU-nun (indiki BDU-nun-İ.A.) Hüquq fakültəsini bitirmişdir. A.B.Rəfiyev 1961-ci ilin noyabr ayına kimi Azərbaycan Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutunda ekspert-kriminalist işləmişdir.

A.B.Rəfiyev 1961-ci ildə Azərbaycan Respublikası prokurorluq orqanlarına işə qəbul edilərək, Şamxor (indiki Şəmkir-İ.A.) rayon prokurorunun köməkçisi vəzifəsinə təyin olunmuş, 1964-cü ildə keçmiş Azərbaycan SSR Prokurorluğunun Məhkəmələrdə cinayət işlərinə baxılması üzrə nəzarət şöbəsinin prokuroru vəzifəsinə təyin edilərək, 1966-cı ilə qədər həmin vəzifədə işləmişdir. Onun yüksək nəzəri biliyi və peşə hazırlığı nəzərə alınaraq, 1966-cı ildə İsmayıllı rayon prokuroru vəzifəsinə təyin olunmuş, 1970-ci ilə qədər həmin vəzifədə işləmişdir. A.B.Rəfiyev 1970-1976-cı illərdə Mingəçevir şəhər, 1976-1979-cu illərdə Zaqatala rayon, 1979-1981-ci illərdə Sumqayıt şəhər prokuroru vəzifələrində işləmişdir. O, 1981-ci ilin sonunda keçmiş Azərbaycan KP Mərkəzi Komitəsinin qərarı və keçmiş SSRİ daxili işlər nazirinin əmrinə əsasən köçürmə qaydasında daxili işlər orqanlarına xidmətə qəbul olunmuş və Azərbaycan SSR Daxili İşlər Nazirliyinin İstintaq İdarəsinin rəisi, həmçinin Nazirliyin Kollegiya üzvü təyin edilmiş, 1989-cu ildən daxili işlər nazirinin müavini vəzifəsində çalışmışdır.

A.B.Rəfiyev 1989-cu ildə, məlum qondarma Dağlıq Qarabağ hadisələri başladığı müddətdə respublikada, xüsusilə Dağlıq Qarabağda cinayətkarlığa qarşı mübarizədə, eləcə də sabitliyin təmin olunmasında xidmətlərinə görə Azərbaycan Respublikasının Əməkdar hüquqşünası fəxri adına layiq görülmüşdür. Ümumiyyətlə, o, həmin vəzifələrdə işləyərkən məlum qondarma Dağlıq Qarabağ hadisələri ilə bağlı respublikanın ən qaynar nöqtələrinə ezamiyyətə getməkdən çəkinməmiş, Dağlıq Qarabağın rayonlarında, Qubadlı, Zəngilan və Ermənistanla sərhəddə olan digər rayonlarda ezamiyyətlərdə olmuş və ekstremal şəraitdə xidməti vəzifəsini nümunəvi yerinə yetirmişdir.

1973-cü ilin axırları olardı. Bakıdan respublika prokurorunun kadr işləri üzrə müavini mərhum İmran Rəsulbəyov mənə zəng etdi və mənim Mingəçevir Şəhər Prokurorluğunun baş müstəntiqi vəzifəsinə dəyişilməyimə razı olub-olmamağımı soruşdu. Dedim ki, bir halda siz məsləhət bilirsiniz, razıyam. Belə də oldu. Mən 1974-cü ilin yanvar ayında Mingəçevir Şəhər Prokurorluğunun baş müstəntiqi vəzifəsinə təyin olundum.

Mingəçevir şəhər prokuroru Akif Rəfiyev də çox savadlı, səriştəli, böyük təşkilatçılıq qabiliyyətinə malik bir prokurorluq işçisi idi. O, tabeçiliyində olan işçilərə xüsusi qayğı ilə yanaşırdı. O, heç vaxt daxili telefonla zəng edib işçisini yanına çağırmazdı. Lazım olanda zəng edib soruşardı ki, nə işlə məşğulsan? Əgər şahid və ya digər şəxsi dindirirdimsə, deyərdi ki, işini qurtar, yanıma gəl. O bilirdi ki, dindirmə prosesini yarımçıq qoymaq olmaz. Belə ki, müstəntiq şahid və digər proses iştirakçıları ilə psixoloji kontakt yaradırsa, dindirməni davam etdirmək lazımdır. Təcrübə göstərirdi ki, şahidlə psixoloji kontakt yaradıb, iş üzrə etirafedici ifadə almaq məqamında bu işi yarımçıq qoyub, prokurorun yanına gedib-gələrkən, şahid prokurorluğun dəhlizində gözləyərkən bəzən yaxın adamları vəziyyəti öyrənir və ona psixoloji təsir göstərir. Müstəntiq qayıdıb onu dindirərkən, o artıq ifadəsini dəyişir.



Bu məsələlər müstəntiqin səlahiyyətinə və vəzifəsinə aid olmasa da, şəhər prokuroru Akif müəllim çalışırdı ki, mən prokurorluq fəaliyyətinin bu sahəsinin də incəliklərini öyrənəm.

Təsadüfi deyil ki, ilk dəfə Respublika Prokurorluğu tərəfindən fərəhləndirmə qaydasında yazılı qol saatı ilə təltif edilməyim də, bilavasitə şəhər prokuroru Akif müəllimin təşəbbüsü ilə olmuşdur.

Akif müəllim bütün əməliyyat müşavirələrinin protokollarını yazmağı mənə həvalə edir, yazdığım protokolları diqqətlə oxuyur və müvafiq düzəlişlər edirdi. Mən Akif müəllimin bu qayğısının bəhrəsini müstəqil vəzifədə-rayon prokuroru vəzifəsində işləyərkən hiss etdim.

Yuxarıda qeyd etdim ki, Akif müəllim daxili telefonla zəng edib, heç vaxt müstəntiqi xidməti otağına çağırmazdı. Bu dəfə isə belə olmadı. Akif müəllim daxili telefonla zəng edib, məni otağına dəvət etdi. Mən onun otağına daxil olarkən gördüm ki, o, telefonla danışır, danışıqdan belə başa düşdüm ki, o, Respublika Prokurorluğu ilə danışır. Akif müəllim telefonda dedi:

- Niyə bacarmır, bacarar, savadlı və səriştəli işçidir.

Akif müəllim telefonun dəstəyini mənə verib dedi:

- Respublika prokurorunun kadr işləri üzrə müavini İmran Rəsulbəyovdur. Danış.

Mən telefonun dəstəyini götürüb, onunla salamlaşdım. İmran müəllim mənə dedi ki, səni müstəqil vəzifəyə-rayon prokuroru vəzifəsinə tövsiyə etmək istəyirik -Puşkin rayon (indiki Biləsuvar rayonu - İ.A), yaxud Zəngilan prokuroru vəzifəsinə, razısanmı?

Mən Puşkin rayon prokuroru vəzifəsinə təyin edilməyimə razılıq verdim və bir neçə gün sonra yeni təyinat yerinə getdim. Mən yalnız onda başa düşdüm ki, Akif müəllim nə üçün mənə müstəntiqin xidməti vəzifəsinə dəxli olmayan işləri - şəhər partiya komitəsinə arayış layihələrini, idarələrarası əməliyyat müşavirələrinin protokollarını hazırlamağı və s. işləri görməyi tapşırırmış.

Artıq qeyd etdiyim kimi, 1975-ci ilin oktyabr ayında respublika prokurorluq orqanlarının bir qrup əməkdaşı ilə birlikdə bizi müstəqil vəzifəyə - rayon prokuroru vəzifəsinə tövsiyə etdilər. Həmin dövrün qaydasına görə, rayon prokuroru vəzifəsinə təyin ediləcək şəxsləri keçmiş Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi şəxsən qəbul edir, qəbuldan sonra namizədlər Mərkəzi Komitənin katibliyində təsdiq edilirdilər. Keçmiş Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi Heydər Əliyev müstəqil vəzifəyə təyin ediləcək şəxsləri qəbul edirdi. Ümummilli lider Heydər Əliyevin qəbulunda olmaq isə bizim üçün böyük şərəf idi.

Beləliklə, şəhər prokuroru Akif Rəfiyevin bilavasitə təşəbbüsü ilə 1975-ci ilin oktyabr ayında indiki Biləsuvar rayon prokuroru vəzifəsinə təyin edildim.

**Akif müəllim daxili telefonla zəng edib, heç vaxt müstəntiqi xidməti otağına çağırmazdı. Bu dəfə isə belə olmadı. Akif müəllim daxili telefonla zəng edib, məni otağına dəvət etdi. Mən onun otağına daxil olarkən gördüm ki, o, telefonla danışır, danışıqdan belə başa düşdüm ki, o, Respublika Prokurorluğu ilə danışır. Akif müəllim telefonda dedi:**
**- Niyə bacarmır, bacarar, savadlı və səriştəli işçidir.**
**Akif müəllim telefonun dəstəyini mənə verib dedi:**
**- Respublika prokurorunun kadr işləri üzrə müavini İmran Rəsulbəyovdur. Danış.**

Onu da qeyd edim ki, şəhər prokuroru Akif Rəfiyevdən çox şey öyrənmişəm. Belə ki, o, mənə statistik hesabatların tərtib olunması, şəhər partiya komitəsinə göndərilən arayışların yazılma qaydasını, bir sözlə, prokuror işinin incəliklərini öyrədirdi.

2001-ci ilin may ayında mən köçürmə qaydasında Ədliyyə Nazirliyinə dəyişilərək, Nazirlik yanında Hüquq-Tədris Mərkəzinin elmi-tədqiqat sahəsi üzrə direktor müavini vəzifəsinə işə təyin edildim. Bu dövrdə Akif müəllim artıq ədliyyə nazirinin müavini idi. Akif müəllim ədliyyə nazirinin müavini olduqdan sonra ona III dərəcəli dövlət ədliyyə müşaviri (ədliyyə general-mayoru-İ.A.) xüsusi dərəcəsi verilmişdi.

Ədliyyə Nazirliyinə işə keçdikdən sonra Akif müəllimlə nazirlikdə görüşür və keçmiş birgə fəaliyyətimizdən söhbət açırdıq.

Akif müəllim ABŞ, İngiltərə, Fransa, İtaliya, Türkiyə, İran, Çexoslovakiya, Almaniya, Bolqarıstan və daha bir sıra xarici ölkələrdə xidməti ezamiyyətdə olmuşdur.

Ümumiyyətlə, Akif müəllim 42 ildən artıq müddətdə prokurorluq, daxili işlər və ədliyyə orqanlarında səmərəli işləmiş, hüquqi biliklərin izahında fəal iştirak etmişdir. O, hüquqi mövzuda yazılmış 100-dən artıq məqalənin müəllifidir.

Akif müəllim 2005-ci ildən Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akdemiyasında pedaqoji fəaliyyətini davam etdirir, eyni zamanda, Bakı şəhəri Binəqədi rayon Ağsaqqallar Şurasının sədri, müharibə və əmək veteranıdır.

Akif Rəfiyevin 2 övladı, 6 nəvəsi var.

Bu ilin mart ayının 23-də onun 80 yaşı tamam olacaq. Bu əlamətdar yubiley münasibəti ilə Akif müəllimi səmimi qəlbdən təbrik edir, ona möhkəm can sağlığı, Qafqaz uzunömürlülüyü, işlərində daha böyük nailiyyətlər, şəxsi həyatında isə xoşbəxtlik arzu edirik.



**İlham Abbasov,**
**Ədliyyə Akademiyasının baş müəllimi, hüquq üzrə fəlsəfə doktoru, baş ədliyyə müşaviri, prokurorluğun fəxri işçisi**

***Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında hazırlanıb.***